Siyəzənin timsalında Azərbaycanda son illər ərzində gedən inkişafı görürük.
İlham ƏLİYEV



# ÇIRAQ



2 sentyabr 2019-cu il № 7 (262) Qəzet 1992-ci ildən çıxır. Siyəzən rayonunun ictimai-siyasi qəzeti. Qiyməti müqavilə yolu ilə



İqtisadiyyatımız bu ilin altı ayında 2,4 faiz, qeyri-neft sektorumuz 3,2 faiz artmışdır. Ən sevindirici göstərici qeyri-neft sənayesindədir. Burada artım 15,7 faizdir. Bu, onu göstərir ki, son illərdə sənayeləşmə siyasətimiz gözəl nəticələr verir. Sənayemizin qeyri-neft sektoru rekord attımlarla irəliləyir. Bu sahədə, əlbəttə ki, bu il istifadəyə verilmiş iri müəssisələrin rolu kifayət qədər böyükdür. Bildiyiniz kimi, karbamid zavodu, «SOCAR-Polymer» zavodu istifadəyə verilmişdir və bu zavodların istehsal həcmi kifayət qədər böyükdür. Eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı üçün lazımi addımlar atılır. Beləliklə, altı ayda qeyri-neft sənayemizin 15,7 faiz artımı, əlbəttə ki, çox sevindirici haldır...

Azərbaycan dayanıqlı inkişaf yolu ilə gedir. Bir neçə il bundan əvvəl dünyanı sarsıdan və bizə də təsirsiz ötüşməyən iqtisadi-maliyyə böhranı artıq arxada qalıb. Biz bu böhrandan şərəflə çıxa bilmişik. Öz valyuta resurslarımızı qoruya bilmişik və artırmışıq. Qeyd etdiyim kimi, təkcə altı ay ərzində 4 milyard dollar əlavə valyuta ehtiyatları toplamışıq. Əlbəttə ki, bu, bizim gələcək işlərimiz üçün də yaxşı şərait yaradır...

Azərbaycan innovasiyalar, müasir idarəetmə, liberal iqtisadiyyat yolu ilə inkişaf etməlidir. Yəni, bütün lazımi tədbirlər görülüb. Təsadüfi deyil ki, bunu beynəlxalq maliyyə qurumları qeyd edir. Biznes mühitinin yaxşılaşdırılması istiqamətində aparılan işlər bunu göstərir ki, bu gün iqtisadi sahədə Azərbaycan dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasındadır. Bununla paralel olaraq, biz sosial sahəyə də çox böyük diqqət göstəririk. Bu il reallaşan layihələr-milyardlarla dollar həcmində ölçülən bu layihələr, bü təşəbbüslər bizim niyyətimizi, bizim siyasətimizi göstərir. Göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bizim iqtisadi gücümüz sosial sahəyə bilavasitə təsir etməlidir və edir. Biz bundan sonra da bu yolla gedəcəyik. Əminəm ki, ilin sonuna qədər nəzərdə tutulan bütün vəzifələr icra ediləcəkdir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Şura iclasında*

## YARIMİLLİYİN YEKUNLARI MÜZAKİRƏ EDİLMİŞDİR

Siyəzən Rayon İcra Hakimiyyəti başçısı yanında Şuranın növbəti iclası keçirilmişdir. İclasda Siyəzən rayonunda 2019-cu ilin birinci yarısında görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilmişdir.

İclası açan rayon İcra Hakimiyyətinin başçısı cənab Novruz Novruzov iyul ayının 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilmiş sosial-iqtisadi sahə ilə bağlı müşavirə barədə danışmışdır. Qeyd etmişdir ki, müşavirədə Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 2019-cu il də ölkəmiz üçün uğurlu olmuşdur. Bu ilin birinci yarımilliyində əldə edilmiş sosial-iqtisadi nəticələr bir daha bunu təsdiqləyir.

Cənab başçı daha sonra rayonun cari ilin birinci yarımilliyindəki sosial-iqtisadi nəticələrini iştirakçıların nəzərinə çatdırdı. Qeyd etdi ki, 2019-cu ilin birinci yarısında rayonun iqtisadiyyatı uğurla inkişaf etmiş, iqtisadiyyatın əsas sahələri üzrə ümumi məhsul buraxılışı faktiki qiymətlərlə 1 milyon 217 min 134 manata çataraq əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,6 faiz artmışdır. Əhalinin pul gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,2 faiz artaraq 64 min 540 manata, adambaşına düşən məbləğ isə 4,2 faiz artaraq 1533 manata çatmışdır. 2019-cu ilin yanvar-iyun aylarında rayonda 339 iş yeri açılmışdır. Daimi iş yerlərindən 4 iş yeri yeni yaradılmış müəssisə və təşkilatlar, 335 iş yeri fiziki şəxslər tərəfindən yaradılmışdır.

2019-cu ilin 6 ayı ərzində Siyəzən şəhərində bir sıra tikinti, abadlıq və quruculuq işlərinin həyata keçirildiyini vurğulayan hörmətli başçı gələcəkdə bu istiqamətdə işlərin davam etdiriləcəyini bildirmişdir.

2019-cu ilin ötən yarımilliyində Siyəzən rayonunun da iqtisadiyyatının uğurla inkişaf etdiyini söyləyən cənab N. Novruzov həlli vacib məsələlərə də toxunmuşdur. Belə ki, rayonumuzda kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirilməlidir. Kənd təsərrüfatı məhsulları istehsalının artırılması üçün bütün mövcud imkanlardan istifadə edilməli, rayonda meyvə bağlarının salınması istiqamətində işlər davam etdirilməlidir. Natiq Şura iclasında kənd təsərrüfatı məhsulları istehsal edilməsi ilə bağlı aidiyyəti təşkilatların rəhbərlərinə konkret tapşırıqlarını da vermişdir.

Natiq hesabat məruzəsində 2019-cu ilin birinci yarısında vətəndaşlar tərəfindən rayon İcra Hakimiyyətinə daxil olmuş müraciətlərlə, keçirilmiş şifahi və səyyar qəbullarla bağlı məlumat vermişdir. Bildirmişdir ki, vətəndaşları narahat edən bütün problemlər diqqət mərkəzindədir. Səyyar qəbulların əhəmiyyətini xüsusi vurğulayan hörmətli Novruz Novruzov qeyd etdi ki, bu zaman problemlər birbaşa sakinlərdən öyrənilir və həlli istiqamətində işlər görülür.

Məruzə ətrafında müzakirələrdə Maliyyə şöbəsinin rəis əvəzi Rəsul Əlibəyov, "Kapital" Bankın Siyəzən filialının müdiri Şirin Nuriyev, Məşğulluq Mərkəzinin direktoru Etibar Heydərov, DSMF Siyəzən rayon şöbəsinin müdiri Kamilə Yusifova, Aqrar İnkişaf Mərkəzinin direktoru Ənvər Hüseynov çıxış etdilər.

Şura iclasını yekunlaşdıran Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Novruz Novruzov sonda idarə, müəssisə və təşkilat rəhbərlərinə tövsiyə və tapşırıqlarını verdi, sosial problemlərin həlli istiqamətində ardıcıl işin vacibliyini ön plana çəkdi. Şəhərdaxili küçələrin asfaltlanması, ümumiyyətlə, abadlıq məsələlərinə diqqətin artırılmasını tapşırdı. Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə aparılan uğurlu siyasətə siyəzənlilərin də layiqincə töhfə verəcəklərinə əminliyini bildirdi.

Şura iclası qərar layihəsinin qəbul olunması ilə başa çatdı

**«Çıraq»**

## Hər bir tapşırığın hesabatı veriləcək

Biz hər dəfə rayonumuzdan, onun adamlarından söz açarkən əvvəlki illərə ötəri də olsa nəzər salır, müqayisələr aparır, itirdiklərimizə, qazandıqlarımıza bir daha göz gəzdirib nəticələr çıxarırıq. Bəzən yaxın keçmişimizin heç də xoş olmayan xatirələri yada düşür.Və deyirik: kaş o qarışıq dövrlər olmayaydı.

Bəli, bu da taleyin bir qismətidir ki, nə yaxşı, həmin qarışıq, xoşagəlməz dövr çox uzun sürmədi. Və gəlib çağdaş günümüzə yetişdik. Asanlıqlamı oldu? Əlbəttə, yox. Əgər Ulu Öndərin yenidən rəhbərliyə qayıdışı olmasaydı.

Çətinlikləri Ulu Öndər Heydər Əliyevin xalqa arxalanan siyasi iradəsi nəticəsində dəf edə bildik. Ölkə məhvə aparan vətəndaş müharibəsi təhlükəsindən qurtuldu. Bunu heç unutmaq olarmı?

Bilirsinizmi bunları niyə xatırlatdım? Günümüzün qədrini bilək deyə. Sizə müraciət edirəm: bu gün ölkəmizin hər gün dünənə görə daha çox inkişaf etdiyinin fərqində deyilsinizmi? Bunu kim inkar edə bilər? Bu ki reallıqdır. Ən azı Siyəzənin timsalında bunu aydın və çəkinmədən demək olar. Bir də siyasi və iqtisadi əsasları Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və uğurlu yol xəritəsinə sahib bir ölkənin nailiyyətlərinin olması təbii deyilmi?

Hazırda ölkəmizdə yaşayan insanların durumu çalxanan narahat dünyamızda həm ictimai-siyasi asudəliyinə görə, həm də iqtisadi baxımdan samballı nəticələrinə görə seçilir. Xalqımız inanır ki, Prezident İlham Əliyevin yüksək siyasi təşkilatçılığı sayəsində problemlər birbəbir aradan qalxacaqdır.

Təbii ki, ölkə üzrə olan bu inkişafdan rayonumuza da pay düşür. Başqa cür də ola bilməz. Son zamanlar rayonumuzdakı inkişafı görərək hesab edirəm ki, özümüzçün də müəyyən nəticələr çıxarmağımızın zamanıdır.

Bilirsiniz, təcrübə böyük və vacib şərtdir. Sözsüz ki, çox fərqli imkanlar, coğrafiyalar, situasiyalar rəngindən asılı olmayaraq, hər bir rəhbərdə fərdi bacarıq inkişaf etdirir. Onu formalaşdırır. Bu xüsusiyyətini isə təbii olaraq cəmiyyətə ötürür. Axı cəmiyyətdə həlledici rolu da onun lideri oynayır.

Yanlış qərarları məyusluq, doğru qərarları isə uğur gətirir, sevindirir. Fərdin çalışdığı sahəyə uyğun fitri qabiliyyəti səmərəli nəticələr alınmasında, əlbəttə ki, öz sözünü deyir. İşə təşəbbüskar, bacarıqlı adamların cəlbi isə vəziyyəti bir qədər də yaxşılaşdırır. Hazırda rayonumuzda əsas diqqət məhz bu istiqamətə, bu amillərə yönəlib.

Ümumi fikirlər, konkret vaxta hesablanmayan tapşırıq və təkliflər bəzən zamanın içərisində it-bata düşür, bu, bir tərəfdə məsuliyyətdən yayınmağa bərabər arxayınçılıq, digər tərəfdə isə qarşı tərəfə olan inamsızlığı möhkəmləndirir. «Əşi, sözdü də deyildi. Kimdi bununla məşğul olan? Növbəti dəfə də eyni sözləri eşidərik.»

Amma son vaxtlar belə deyil. Hər bir qaldırılan problemin mümkünlük dərəcəsinə görə konkret həlli müddəti göstərilir. Vətəndaşlarla olacaq yeni qəbul məhz qaldırılan problemin həlli üçün ayrılmış vaxt limitinin bitdiyi günə təyin olunur. Çox sevindirici, alqışalayiq addımdır. Vəzifə məsuliyyətini artıracaq və möhkəmləndirəcək addımdır.

Son dövrlər vətəndaşlarla görüşlər zamanı müşahidə olunan bir məqamı ayrıca qeyd etmək istəyirəm. Qəbullarda şəxsi xahişlərin, şikayətlərin azlığı, bəzən heç olmaması istər istəməz bizi düşündürür. Əcəba, bunların şəxsi problemləri yoxdurmu, bəlkə çəkindikləri üçün belə edirlər? Bəlkə başqa bir səbəb var?

Lakin görüşlər zamanı yaradılan sərbəstlik, fikirlərə müdaxilənin olmaması, əksinə, onların suallarını verməyə təkid edilməsi birmənalı nəticə çıxarmağa əsaslar verir. Deməli problemlər tədricən çözülür, həllinə biganəlik göstərilmir. Bəli, budur inkişafın göstəricisi.

İnsanların ən başlıca problemi nədir? Əlbəttə ki, işsizlik. Məncə, rayonumuzda əsas problemlərdən biri olan işsizliyin minimuma endirilməsi bu işdə başlıca rol oynayır.

Bu gün bizi ən çox sevindirən amil hər günümüzü daha mənalı edən yeniliklərlə qarşılaşmağımızdır. Yəqin ki, yaşamağın əsas mənası da elə bundadır.

**İ. İLYASOV**

Səyyar qəbullardan

# SAKİNLƏR RAZI QALDILAR



Həyat göstərir ki, kəndlərdə, yaşayış məntəqələrində səyyar qəbulların keçirilməsini sakinlər yüksək dəyərləndirirlər. Xüsusilə kənd sakinləri. Belə görüşlərlə onlar həm vaxt itkisinə qənaət edir, həm də uzun məsafə qət etmədən narahat olduqları məsələlər barədə rayon rəhbərliyinə birbaşa müraciət etmək imkanı əldə edirlər.

Qozağacı kəndində belə oldu. Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab N. Novruzov sakinləri dinləyərək aidiyyati təşkilatlara göstərişlərini verdi. Sakinlərə müraciətlə bildirdi ki, kəndin yeri relyefinə görə yaxşı seçilib. Kənddə iş yeri torpaqdır. Torpaqdan möhkəm yapışanın süfrəsində də bərəkət, bolluq olar. Təsərrüfatların yaradılması vacibdir. Yaxşı gələcək üçün böyük perspektivlər var. Kənd təsərrüfatının inkişafı ilə bağlı tövsiyə və tapşırıqlarını verən İcra başçısı sakinlərin müraciətlərinə xüsusi diqqətlə yanaşdı.



Rayonun Daşlı Calğan kəndində də əhali ilə səmimiyyətlə görüşən hörmətli başçı vurğuladı ki, belə səyyar qəbullar həmişə keçiriləcək. Görülmüş işlərin yekunu da birlikdə müzakirə ediləcək. Problemlərin birbaşa sakinlərdən öyrənilməsi işimizin xeyrinədir.

Böyük yaşayış məntəqələrindən birində- Zaratda keçirilən səyyar qəbulda İcra Hakimiyyəti başçısı ilə yanaşı Azərbaycan Respublikası Prezidenti Administrasiyası Ərazi-təşkilat məsələləri şöbəsi 4-cü sektorunun müdiri Habil Əzənmədov da iştirak edirdi.

Cənab Novruz Novruzov sakinlərə müraciətlə söylədi ki, dövlətimizin başçısının dediyi kimi, yürütdüyümüz siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması durur. Son vaxtlar Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar bir daha bunu təsdiqləyir.

Sakinlər müxtəlif problemlərə toxundular. Belə ki, paytaxt istiqamətində gedən avtomobil yolunda dayanacağın tikilməsini qeyd edənlər də oldu, külək əsəndə işıqların sönməsindən şikayətlənənlər də, içməli su sarıdan gileylənənlər də.

Cənab başçı sakinlərə müraciətlə vurğuladı ki, kəndin ərazisində, Pirin altı adlanan sahədə təmizliyə ciddi fikir verilməlidir. Kənddə cinayətkarlığa qarşı mübarizə tədbirləri də gücləndirilməlidir. Şübhəsiz ki, burada aidiyyatı təşkilatlarla yanaşı ağsaqqalların, ziyalıların da köməyi vacibdir.

Prezident Administrasiyasının məsul işçisi H. Əzənmədov zaratlılarla yenidən görüşməkdən məmnunluğunu ifadə edərək, belə görüşlərin əhəmiyyətini qeyd etdi.

Cənab H. Əzənmədov müraciətlərin fərdi yox, daha çox elnən, kəndin ümumi problemləri ilə bağlı olmasını xoş bir hal kimi qeyd etdi. O, eyni zamanda, qarşıda duran vəzifələrdən danışaraq, həyata keçirilməsində hər bir siyəzənlinin də fəallıq göstərəcəyinə əminliyini bildirdi.

Siyəzən şəhər 3 saylı tam orta məktəbdə səyyar qəbulda yaxınlıqdakı küçələrin sakinləri iştirak edirdilər. Görüşdə sakinlərlə birlikdə şəhərin mövcud problemlərindən danışan İcra başçısı qeyd etdi ki, əhalini narahat edən məsələlər tədricən ardıcıl olaraq həll edilməkdədir. Amma hər bir vətəndaş yaradılanlara da qayğı ilə yanaşmalıdır. Evimizin, həyətimizin səliqə-sahmanına xüsusi qayğı ilə yanaşdığımız kimi, şəhərimizə, küçəmizə də eyni diqqət göstərməliyik.

«Çıraq»

# NİKBİNLİK ƏSAS ŞƏRTDİR

Gəlin səmimi etiraf edək ki, heç vaxt rayonumuzda bu dərəcədə ahəngdar, müntəzəm işin aparıldığının şahidi olmamışdıq. Quruculuq, abadlıq işləri əvvəllər olduğu kimi, şəhərin təkcə cənub bölgəsində deyil, hər bir guşəsində aparılır. Bu işlərin içərisində təmizlik, yaşıllıqların salınması, həm də onların qorunması, bir sözlə, faydalı iş, məhsuldar fəaliyyət durur.

Odur ki, məncə, bizim də hər birimiz bu ahəngə qoşulmalı, töhfəmizi yetərincə verməyə çalışmalıyıq. Çünki bu, bizimçün həm təəssübkeşlik borcu, həm də bir bir fürsətdir.

Sevinirəm ki, mənim çəpər qonşum, məhəllə camaatım, siyəzənli həmyerlim liberallıqdan uzaq, ədalətlidirlər. Dövlətinin, dövlətçiliyinin, onun rəhbərinin qədrini bilirlər. Və yaxşıya yaxşı deməklə onlardan daha irimiqyaslı, daha neçə-neçə xoş işlərin sorağını gözləyirlər.

Yeri gəlmişkən, bir qədər də mənəviyyat barədə. Bəlkə bir az təkrarçılığa yol verirəm, amma məmnuniyyətlə bir daha qeyd etmək istəyirəm, nəhayət, düşüncələrdə elitarlıq, görüşlərdə ziyalılıq, tədricən formalaşan mədəni mühit Siyəzəndə ön mövqeyə keçə bildi. İnsanların öyrənmək həvəsi özünə qaytarıldı, yaradıcılıq barədə düşünmək borcu xatırladıldı.

Etiraf edək ki, əksər sahələr üzrə əvvəllər gözə çarpan primitivlik özünü ziyalı görən hər kəsdə üzüntü doğururdu. Dəyişikliklər oldu, şüurlarda, həm də bu dəyişiklik Siyəzənə yeni nəfəs gətirdi, ruh gətirdi. İndi bunu görmək, xüsusilə xoşdur.

Bütün bunlara görə hörmətli Prezidentimizə bir daha minnətdarlıq bildiririk: rayonumuzda yaratdığı bu ab-havaya, göstərdiyi qayğıya görə. Cəsarətlə deyirəm: söylədiklərim ziyalıların gəldiyi ümumi rəydir. Əziz siyəzənlilər, hələlik lokal müsbət nəticələrlə kifayətlənirik. Davamı gəldikcə isə (bunun belə olacağına isə heç bir şübhəmiz yoxdur) ümumi nəticə formalaşacaq, arzuladığımız gerçək mənzərəni görə biləcəyik.

Nikbinlik əsası qoyulan hər bir işin uğurlu olmasında başlıca şərt və əlamətdir. Bunun nə mübahisəyə, nə də müzakirəyə ehtiyacı var. Fərəhlə deyə bilərik ki, bu gün Siyəzən cəmiyyətində formalaşan ümumi atmosfer nikbinliyə köklənib. Odur ki, qazanılacaq nailiyyətlər də özünü yəqin ki, çox da gözlətməyəcək.

İ. İLYASOV

## Qurban payları verilmişdir

İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramının əsasında Allaha sonsuz sevgi, onun qüdrətinə dərin inam və iman işığı durur.

İnsanları halallığa, paklığa səsləyən Qurban bayramı ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da yüksək səviyyədə qeyd edilmişdir. Belə ki, Qurban bayramı münasibətilə Şəhid, Qarabağ müharibəsi əlilləri, aztəminatlı ailələrə, tənha yaşayanlara Siyəzən Rayon İcra Hakimiyyəti tərəfindən Qurban payları verilmişdir.

«Çıraq»

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra №-si | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü | Qəbul saatı |
|---|---|---|---|---|
| 1 | Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı | Novruzov Novruz Nəcəf oğlu | çərşənbə axşamı | saat 11:00-dan başlayır |
| 2 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Əliyev Zəfər Nüsrət oğlu | bazar ertəsi | saat 14:00-dan başlayır |
| 3 | Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Bəxtiyarova Təhminə Vahid qızı | çərşənbə | saat 14:00-dan başlayır |
| 4 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Bəşirov Xaqani Paşa oğlu | cümə | saat 11:00-dan başlayır |
| 5 | Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar | Novruzov Səxavət Mehdi oğlu | bazar ertəsi | saat 10:00-dan başlayır |
| 6 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Mursaquliyev Feyyaz Lətifulla oğlu | cümə axşamı | cümə axşamı |

Qeyd: 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbulu günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.
3. Vətəndaşların qəbulu ilə əlaqədar əlaqə telefonu: (23) 304-00-10

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısının 2019-cu ilin sentyabr ayında keçirəcəyi səyyar qəbulların QRAFİKİ

| S. №-si | Qəbulun keçiriləcəyi yer | Tarix | Saat |
|---|---|---|---|
| 1. | Siyəzən şəhəri 3 saylı tam orta məktəbin binası (Siyəzən şəhərinin Şah İsmayıl Xətai, Səməd Vurğun və Nəriman Nərimanov küçələri) | 06.09.2019 | 12:00 |
| 2. | Qalaşıxı kəndi, açıq havada | 13.09.2019 | 12:00 |
| 3. | Siyəzən şəhəri Mərkəzi Kitabxananın binası (Siyəzən şəhərinin Heydər Əliyev küçəsi 9 və 13, Tofiq İsmayılov küçəsi 31-38 nömrəli yaşayış binaları) | 20.09.2019 | 12:00 |
| 4. | Siyəzən kəndi, açıq havada | 27.09.2019 | 12:00 |

## Dövlət orqanlarının yerli qurumlarında vətəndaşların qəbulu CƏDVƏLİ

| S. №-si | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü və saatı |
|---|---|---|---|
| 1. | Siyəzən Rayon Gənclər və İdman İdarəsinin rəisi | Məmmədov Nadir Əmrulla oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 2. | Siyəzən Rayon Təhsil Şöbəsinin müdiri | Hacıyev Rəfail Məmmədrza oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 3. | Siyəzən Telekommunikasiya Qovşağının rəisi | Kəbirov Rafiq Kəbir oğlu | Hər iş günü, saat 15:00-dan başlayır |
| 4. | Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzinin baş həkimi | Hümbətov Dadaş Ümüd oğlu | Hər iş günü, saat 11:00-dan başlayır |
| 5. | Siyəzən rayon Mərkəzi Poliklinikanın baş həkimi | Quliyev Əhməd Əli oğlu | Hər iş günü, saat 10:00-dan başlayır |
| 6. | Siyəzən rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru | Yaqubov Mehman Nəcməddin oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 7. | Xaçmaz Regional Qaz İstismar İdarəsinin Siyəzən Xidmət Sahəsi üzrə rəis müavini | Cəfərov Natiq Xəlil oğlu | Çərşənbə axşamı və cümə axşamı günü, saat 15:00-dan başlayır |
| 8. | Xaçmaz Regional Sukanal idarəsinin Siyəzən abonent işləri sahəsinin rəisi | Cabbarov Eldar Pənah oğlu | Çərşənbə axşamı və cümə günü, saat 15:00-dan başlayır |
| 9. | Dövlət Sosial Müdafiəsi Fondunun Siyəzən rayon şöbəsinin müdiri | Yusifova Kamilə Şəmsəddin qızı | Çərşənbə axşamı və cümə axşamı günü, saat 10:00-dan başlayır |
| 10. | Rayon Kənd Təsərrüfatı İdarəsinin rəis əvəzi | Hüseynov Ənvər Əlbala oğlu | Hər iş günü saat 10:00-dan başlayır |
| 11. | Siyəzən rayon Baytarlıq İdarəsinin rəisi | Qasımov Seyfulla Eynulla oğlu | Çərşənbə günü, saat 10:30-dan başlayır |
| 12. | Siyəzən rayon Məşğulluq Mərkəzinin direktoru | Heydərov Etibar Murad oğlu | Çərşənbə günü, saat 10:00-dan başlayır |
| 13. | Siyəzən rayonu üzrə Maliyyə Şöbəsinin rəisi əvəzi | Əlibəyov Rəsul Bilal oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 14. | «Azərpoçt» MMC-nin Siyəzən Poçt Filialının rəisi | Əliyev Akif Hacı oğlu | Bazar ertəsi və cümə axşamı günü, saat 14:00-dan başlayır |

Qeyd: 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.

*Xatırlananlar*

# PROKUROR ƏŞRƏF ƏLİYEV



Həmyerlimiz, tanınmış prokuror Əşrəf Əliyev. Sağlığında özüylə görüşüb söhbətləşə bilməsəm də Siyəzənin yaşlı nəslindən onun haqqında çox eşitmişdim. İndi onların çoxu dünyasını dəyişib. Elə Əşrəf müəllimin özü də 20 il öncə haqq dünyasına qovuşubdur.

Bu yazını qələmə alanda ilk əvvəl nədənsə Sara xanımı xatırladım. Adı Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış millət atası milyonçu Hacı Zeynalabdin Tağıyevin qızı Sara xanımı deyirəm. Sovet rejiminin ən qızğın dövründə-ötən əsrin 70-ci, 80-ci illərində bu talesiz milyonçu qızına himyədarlıq edərək dava-dərmanını alıb gətirən, yeməyinin, içməyinin qayğısına qalan memar (indisə akademik) Nəriman Əliyevin adı ziyalılar arasında, xüsusilə universitet mühitində böyük hörmətlə çəkilirdi. Çoxlarının sovet rejiminin qadağalarından çəkinib yaxın durmadığı, kasıb otağının qapısını dəli küləklərdən savayı kimsənin döymədiyi, açmadığı Sara xanıma illərlə əsl övlad qayğısı göstərən böyük insanpərvər Nəriman Əliyevin prokuror Əşrəf müəllimin oğlu olduğunu sonralar tanış həmkarlarımın birindən eşitdim.

İllər ötdükcə, araşdırmalar genişləndikcə bir daha qət etdim ki, prinsipial, sözübütöv, bir ömür boyu haqqı, ədaləti həyat amalına çevirmiş bir insanın-dövrünün tanınmış prokuroru Əşrəf Əliyevin övladı məhz belə olmalıydı. Əlbəttə, akademik Nəriman Əliyevin geniş elmi fəaliyyəti, böyük insanpərvərliyi bir başqa yazının mövzusudur, həm də vərəqlərə sığmayacaq maraqlı bir yazının.

Yazını hazırlayarkən bir də böyük yazıçı Süleyman Rəhimovun məşhur «Mehman» povesti yadıma düşdü. Sonralar bu əsərin motivləri əsasında hamımızın həvəslə baxdığımız «Qanun naminə» adlı film də çəkildi. Əsərin qəhrəmanı gənc prokuror Mehmanın ömrü qanun naminə çətin mübarizədə yarımçıq qırılsa da mənim və yaşıdlarımın çoxunun yaddaşlarında o, paklıq və ədalət rəmzi kimi həmişəlik qaldı.

Həyatı daim qanunun ucalığı uğrunda mübarizədə keçən, «qanun şahdır, şah qanun deyil» deyən prokurer Əşrəf Əliyevi isə bütün ömrü boyu bu yoldan döndərmək mümkün olmadı. Düzdür, yolunun üstündə dayananlar da çox oldu, təzyiq göstərənlər də. Ancaq o, sınmadı, əyilmədi, mərdlik və kişilik rəmzinə çevrilərək, başqalarına da örnək olacaq bir ömür yaşadı: əsl kişi ömrü.

Qozağacı kəndini, yəqin ki, tanıyırsınız. Əşrəf Əlibala oğlu Əliyev 1914-cü ildə bu kənddə doğulub, boya-başa çatıb. Atası Əlibala kişini 30-cu illərdə kolxoz təsərrüfatı qurulanda bacarıq və əməksevərliyini nəzərə alaraq kolxoz sədri seçiblər. Və düz 13 il o, kolxoz təsərrüfatına rəhbərlik etmişdir.

Zaman-zaman Əşrəf Əliyevi tanıyanların yaddaşındakı xatirə bükümlərini vərəqlədikcə görürsən ki, sonralar adı bütün ölkənin hüquq işçiləri arasında böyük ehtiramla çəkilən bu insanın həyat yolu keşməkeşlərlə dolu olubdur. Fəhlə-gənclər məktəbində oxuyarkən maddi çətinliklər üzündən təhsilini yarımçıq qoyub kəndə qayıtmalı olur. Kəndə qayıdan 17 yaşlı gəncin savadı, işgüzarlığı diqqətdən yayınmır və onu kənd sovet sədri təyin edirlər. Dəvəçi rayonunun kəndlərində kənd sovetinin sədri, sonra da katibi işləyən Ə. Əliyev 1939-cu ildə rayon partiya komitəsinin təşəbbüsü ilə Ədliyyə Nazirliyinin nəzdində olan 2 illik hüquq məktəbinə oxumağa göndərilir.

Hüquq məktəbində dövlət imtahanlarını verdiyi günün səhəri hərbi komissarlığa gələrək könüllü şəkildə cəbhəyə-ikinci dünya müharibəsinə yollanan Ə. Əliyevin döyüş yolu çox qısa olur: cəmi 5 ay. O, döyüşlərin birində aldığı ağır yara üzündən arxa cəbhəyə ezam edilir.

Bir ay sonrasa Ə. Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin göstərişi ilə Xızı rayonuna prokuror göndərilir. Həmyerlimizin Xızı rayonundan başlayan prokurorluq fəaliyyəti sonralar Xaçmaz, Xaldan, Gəncə ilə dəyişdirilir.

Qardaşı, rayonumuzun idman həyatında öz sanballı sözünü demiş Əkbər Əliyev söyləyir ki, Xaçmaz və Xaldanda işləyərkən olduqca ötkəm və qanunpərəst Əşrəf rayon rəhbərliyinin, xüsusilə I katibin ədalətsizliyi ilə barışmır. Və bu münaqişələrlə bağlı xəbərlər Azərbaycan KP MK-nın birinci katibi Micəfər Bağırova çatır. Bağırovun məsələyə ciddi müdaxiləsi hər iki rayonun birinci şəxslərinin işdən çıxarılması ilə nəticələnir. Münaqişənin bu cür çözülməsini eyni zamanda prokuror Əşrəf Əliyevin, haqqın, ədalətin qələbəsi kimi də dəyərləndirmək olar.

Həm müasirləri, həm də ölkənin ən tanınmış hüquqşünasları dəfələrlə mətbuatda, ən mötəbər yığıncaqlarda onun hüquq-mühafizə orqanlarındakı fəaliyyətini yüksək qiymətləndirmiş, ağızdolusu danışmışlar. Bəli, işlədiyi illər ərzində ən səsli-küylü, böyük rezonans doğuran, heç bir ip ucu olmayan cinayətlərin izinə düşən, günahkarları layiqincə cəzalandıran prokuror Əşrəf Əliyev şərəfli bir ömür yaşamışdır. Hüquq-mühafizə sistemindəki 33 illik fəaliyyəti nəticəsində yüzlərlə insanı haqq-ədalət yoluna qaytaran, oğruya, qatilə, quldura layiq olduğu cəzanı verən Əşrəf Əliyev bu gün də ehtiramla xatırlanır, hörmətlə yad edilir.

1974-cü ildə Əşrəf Əliyev baş ədliyyə məsləhətçisi kimi təqaüdə göndərilir. Uzun illərin sarsıntıları, əsəb gərginliyi öz sözünü yavaş-yavaş deyirdi: 52 yaşında tutulduğu amansız şəkər xəstəliyi, kəskin ürək ağrıları da bir yandan. Bəlkə elə bu səbəbdəndir ki, prokuror Əşrəf Əliyev 3 övladından heç birinin hüquqşünas olmasını istəmədi. «Çətin, olduqca çətin peşədir» -demişdi. Odur ki, övladları başqa sahələrdə ali təhsil aldılar.

Əşrəf Əliyev 1988-ci ildə dünyasını dəyişib. Məzarı doğulub boya-başa çatdığı, bir ömür boyu işinin, qayğılarının çoxluğuna, vaxtının azlığına baxmayaraq həmişə böyük həvəslə görüşünə tələsdiyi Qozağacı kəndindədir. Torpağı nurla dolsun, deyirik.

**R. MURADOVA.**

**Müəllifdən: Yazı çapa hazırlanarkən öyrəndim ki, Əşrəf Əliyevin nəvəsi Elçin Nəriman oğlu hüquqşünasdır. Babasının bütöv bir nəsilə yadigar qoyub getdiyi təmizlik, haqq-ədalət, vicdan yolunun ləyaqətli davamçısıdır.**

Xidmət təşkilatları

# GÜNÜN TƏLƏBLƏRİ SƏVİYYƏSİNDƏ

İqtisadiyyatın elə bir sahəsi yoxdur ki, orada avtonəqliyyatın bu və ya digər növlərindən istifadə edilməsin. Ümumiyyətlə, iqtisadiyyatın inkişafını bunsuz təsəvvür etmək qeyri -mümkündür.

Bəs bu gün SOCAR Nəqliyyat İdarəsinin Siyəzən sahəsində işlərin gedişi necədir? Sahənin kollektivi 2019-cu ilin birinci yarısını necə başa vurur? Siyəzən, eləcə də şimal bölgəsinin rayonlarına xidmət göstərən bu sahənin avtonəqliyyat işçiləri öz fəaliyyətlərini günün tələbləri səviyyəsində qura bilirlərmi?

Müsahibimiz SOCAR Nəqliyyat İdarəsinin Siyəzən sahəsinin rəisi Ehtimal İbadulla oğlu Abdullayevdir. O, Azərbaycan Texniki Universitetini bitirib və 1995-ci ildən adıçəkilən müəssisədə işləyir. Əvvəllər mexanik, daha sonrasa avtodəstə rəisi vəzifələrində çalışıb.

Ehtimal Abdullayev söhbət əsnasında bildirdi ki, sahənin xidmət göstərdiyi ərazi Xızı rayonundan başlayıb üzü şimal bölgəsini-Siyəzən, Şabran, Quba, Qusar və Xaçmaz rayonlarını əhatə edir. Adları çəkilən rayonların hər birində sahənin işçi qrupu vardır.

Rayonumuzun iqtisadiyyatında «Siyəzənneft» Neft və Qazçıxarma İdarəsi əsas yer tutur. Bu nəhəng müəssisənin fəaliyyətinin ahəngdarlığı avtonəqliyyatçılarla sıx bağlıdır. Neftçıxarma mədənlərində hər hansı qəzamı, yaxud nasazlıq baş verdimi, fərq etməz, günün hansı vədəsində olursa olsun, SOCAR Nəqliyyat İdarəsinin Siyəzən sahəsinə müraciət edilir. Neftçilərin iş ünvanlarına aparılıb-gətirilməsində azacıq ləngimə iş ahənginin pozulmasına səbəb ola bilər. Odur ki, avtonəqliyyatçılar öz işlərində hər gün, hər saat, hər dəqiqə sərvaxtdırlar.

Avtonəqliyyat və xüsusi növ texnika ilə Siyəzəndəki, eləcə də şimal bölgəsindəki bir çox müəssisələrə xidmət göstərən sahənin kollektivi 2019-cu ilin birinci yarısını da uğurlu göstəricilərlə başa vurubdur. Belə ki, xidmət göstərdikləri bütün müəssisələrin sifarişləri vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilmişdir.

Sahə rəisi E. Abdullayev daha sonra vurğuladı ki, öhdəmizdə 220 ədəd avtonəqliyyat və xüsusi texnika növü vardır. Onların hər birinin xidmətə hazır vəziyyətdə, saz halda olması da gündəlik fəaliyyətimizin başlıca cəhətlərindəndir.

Söhbət sahənin yüksək səviyyədə fəaliyyətində xüsusi əməyi olanlardan, fərqlənən, əmək nümunəsi göstərən işçilərdən düşdükdə sahə rəisi E. Abdullayev bu məqamda bir az tərəddüd etdi. Bildirdi ki, bir-bir adlarını çəksəm, həqiqətən, yaxşı olmaz. Tam məsuliyyətlə deyirəm ki, avtonəqliyyatçılarımız arasında işinə laqeyd yanaşanlara rast gəlməzsiniz. Hamı öz işinin öhdəsindən bacarıqla gəlməyə çalışır, üzərinə düşən məsuliyyəti dərindən dərk edir. Odur ki, ayrı-ayrılıqda ad çəkməyə, məncə, ehtiyac görmürəm. Məhz hamının birgə fəaliyyətinin, yaxşı işinin nəticəsidir ki. xidmət göstərdiyimiz təşkilatlar bizdən razılıq edirlər.

**R. MURADOVA**

# SOSİAL FİRAVANLIĞIN TƏMİNATINA DOĞRU

Bildiyiniz kimi, 2019-cu il sosial inkişafla bağlı bir il oldu. Bu ildə iki böyük islahat paketi qəbul edildi. Birinci paket artıq tam şəkildə icra olundu, həm pensiyaçılarımızın, həm də işləyən vətəndaşların əmək haqları artırıldı. İkinci sosial paketdə sentyabr ayında minimum əmək haqqının 250 manata çatdırılması, dövlət strukturlarında çalışanların əmək haqlarının artırılması, oktyabr ayının 1-dən eyni zamanda minimum pensiyanın 200 manata çatdırılması nəzərdə tutulub.

Ötən ilin sonlarında qanunvericiliyə edilmiş dəyişiklik nəticəsində sosial sığorta aministiyası elan edildi və 2006-cı ildən 2018-ci ilədək sosial sığorta sahəsində ödəniş etmiş şəxslərə 25 il sığorta stajı tətbiq edildi. Yanvar ayının 1-dən etibarən avtomat pensiya təyinatına başlanılıb.

Bu günə qədər rayon ərazisində 66 nəfərə avtomat pensiya təyin edilib. Müavinət və təqaüdlərin də avtomatlaşdırılması sahəsində işlər aparılır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış «Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında» 19 aprel 2018-ci il tarixli Fərmana əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Siyəzən rayonu üzrə 52 şəhidin vərəsələrinə 11000 manat miqdarında birdəfəlik sığorta ödənişi həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında» 30 yanvar 2019-cu il tarixli Fərmanı ilə rayon üzrə 46 şəhid ailəsinin aldığı Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 58 manat artırılaraq 2019-cu il fevralın 1-dən 300 manat müəyyən edilib.

2019-cu ilin 1 yanvar tarixinə 4334 nəfər pensiyaçının əmək pensiyaları artırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında» 25 fevral 2019-cu il tarixli Sərəncamı dövlət başçısının daha bir humanist təşəbbüsünün nəticəsi olmaqla, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində mühüm tədbirlərin ardıcıl xarakter aldığını göstərir.

Sərəncama uyğun olaraq, 2019-cu ilin aprel ayının 1-dən rayon üzrə 394 nəfər yaşa görə sosial müavinət alan vətəndaşların müavinətinin aylıq məbləği 73 manatdan 130 manata; 96 nəfər I qrup əlilliyə görə ümumi səbəbdən əlillər üçün 82 manatdan 150 manata; 252 nəfər II qrup əlilliyə görə ümumi səbəbdən əlillər üçün 61 manatdan 130 manata; 246 nəfər III qrup əlilliyə görə ümumi səbəblərdən əlillər üçün 52 manatdan 110 manata; 206 sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 82 manatdan 150 manata; 125 nəfər ailə başçısını itirməyə görə isə ailə üzvlərinin hər biri üçün 68 manatdan 80 manata; 5-dən çox uşağı olan 22 qadının hər uşağı üçün 33 manatdan 55 manata qaldırılmışdır.

25 fevral 2019-cu il tarixli Sərəncamla eyni zamanda rayon üzrə müharibə əlillərinə də Prezident təqaüdünün məbləğinin 4 nəfər I qrup əlilliyə görə 182 manatdan 250 manata, 57 nəfər II qrup əlilliyə görə 158 manatdan 230 manata, 34 nəfər III qrup əlilliyə görə 121 manatdan 210 manata, 1 nəfər 1941-1945-ci illər Böyük Vətən Müharibəsi iştirakçısına Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin 121 manatdan 150 manata çatdırılması öz əksini tapır.

Sərəncamda I qrup əlillərə və sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlara qulluq edənlərə aylıq 50 manat, müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət, habelə döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə aylıq 80 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi də yer alıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında 27 fevral 2019-cu il tarixli Sərəncamına əsasən mart ayının 1-dən rayon üzrə 860 nəfər pensiyaçının aldığı pensiyanın minimum məbləği artırılaraq 160 manata çatdırılmışdır.

Hal-hazırda DSMF-nin Siyəzən rayon şöbəsindən 1001 nəfər Prezident təqaüdü, 1207 nəfər sosial müavinət, 4424 nəfər əmək pensiyası, 274 nəfər aztəminatlı ailə ünvanlı dövlət sosial yardımı alır.

**Kamilə YUSİFOVA,**
**DSMF-nin Siyəzən rayon şöbəsinin müdiri.**

# Profilaktika ən gözəl müalicədir

Mühitin, suyun, iqlimin dəyişməsi uşaqlar arasında ishalla müşayiət olunan xəstəliklərə, funksional pozulmalara gətirib çıxarır. İshalın səbəbi bakteriyalar, viruslar və ibtidailərdir. İnfeksiya mənşəli ishal adətən kəskin başlayır, qusma, kəskin ishalla və yüksək hərarətlə müşahidə olunur.

Kəskin bağırsaq infeksiyalarının baş verməsində və ağır keçməsində aşağıdakı faktorlar əsas rol oynayır: yaş, mikrobun növü, həzm sisteminin natamam inkişafı, qidalanmanın növü, premorbid fon, immun sistemin aşağı olması.

Bağırsaq mikroflorasının pozulması səbəbləri müxtəlifdir. Yoluxucu xəstəliklərin yayılması prosesi 3 hissədən ibarətdir. 1. Yoluxma mənbəyi. 2. Törədicinin ötürülmə mexanizmi. 3. Əhalinin həssaslığı.

Bu 3 hissədən birinin aradan götürülməsi infeksion prosesin dayanmasına səbəb olur. Yoluxma mənbəyi xəstə və törədici gəzdirən insanlar və heyvanlardır. Törədici əsasən tənəffüs, defekasiya, sidik ifrazı, öskürmə, asqırma, qusma ilə ətraf mühitə yayılır. Törədicinin ötürülmə mexanizmi özü də 3 ardıcıl fazadan ibarətdir. Törədicinin orqanizmdən ifraz olması, xarici mühitdə məskunlaşması və yeni orqanizmə daxil olması.

İnsanların yoluxucu xəstəliklərə qarşı həssaslığı müxtəlifdir. Elə yoluxucu xəstəliklər var ki, onlara bütün adamlar həssasdır. Xəstəliyə tutulmağın müxtəlif təsiredici faktorları: -sosial şərait, yaş, həyat tərzi, immun sistemin vəziyyəti -vardır.

Bağırsağın selikli qişası normal fəaliyyət göstərdikdə yad maddələrin, toksinlərin qana sorulmasının qarşısı alınır. Bağırsaq keçiriciliyinin artması sindromu zamanı profilaktika mühüm rol oynayır. Xəstəliklərin profilaktikası daha vacib və effektlidir. Bununçün analara tövsiyəmiz ondan ibarətdir ki, uşaqları kəskin bağırsaq infeksiyalarından qorusunlar, şəxsi gigiyena qaydalarına əməl etsinlər.

**Mənsurə Ağayeva,**
**Regional Müalicə Diaqnostika Mərkəzinin həkim-pediatrı.**

# TƏLƏBƏLƏRLƏ GÖRÜŞ

O günün sevincini bu gənclər, yəqin ki, hələ uzun müddət unuda bilməyəcəklər. 2018-2019-cu tədris ilində ali məktəblərə qəbul imtahanlarında yüksək nəticələr əldə edərək tələbə adını qazanmış gənclərlə görüşü Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı hörmətli Novruz Novruzov açdı. Gənclər Mərkəzində keçirilən görüşdə başçı tələbələri, onların valideynlərini təbrik etdi, müəllimlərin əməyini xüsusi dəyərləndirdi.

Daha sonra Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təhminə Bəxtiyarova 2018-2019-cu dərs ilində rayonumuzda ali məktəblərə qəbul imtahanlarının nəticələri barədə məruzə etdi. Rayon Təhsil Şöbəsinin müdiri Rəfail Hacıyevin də çıxışı dinlənildikdən sonra tələbə adına layiq görülmüş gənclərə fəxri fərmanlar, 37 nəfərinsə hər birinə 100 manat məbləğində mükafat verildi.

Ali məktəblərə qəbul imtahanlarında ən yüksək bal toplayaraq 694 balla Azərbaycan Tibb Universitetinin Müalicə işi fakültəsinə daxil olan M. Müşfiq adına 2 saylı tam orta məktəbin məzunu, Qədəşova Samilə Xalidşah qızının çıxışı da maraqla qarşılandı. Gələcəyin həkimi qazandığı uğurlara görə ona dərs demiş müəllimlərə minnətdarlığını bildirdi, ali məktəbdə də yüksək təhsillə fərqlənəcəyinə söz verdi.

Millət vəkili Tahir Süleymanov, C. Cabbarlı adına 1 saylı tam orta məktəbin müəllimi Aida Nəcəfi, valideyn Faiq Əhmədov tələbələri təbrik etdilər, təhsildə uğurlar arzuladılar.

Görüşü yekunlaşdıran cənab Novruz Novruzov gənclərə müstəqil həyat yollarında mübariz olmağı, çətinliklərdən qorxmamağı tövsiyə etdi, ölkəmizin yüksəlişində savadlı, yüksək intellektə malik gənclərin də əməyi olduğunu vurğuladı. Bu gün ölkə gəncliyinə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışdı.

Tədbirdə qabaqcıl müəllimlərdən bir qrupuna Rayon İcra Hakimiyyəti başçısının Sərəncamı ilə Fəxri-fərmanlar, qiymətli hədiyyələr verildi.

Və sonda sizə rayon üzrə ali məktəblərə qəbul imtahanlarında 600-dən yüksək bal toplamış məzunların siyahısını təqdim edirik:

Qədəşova Samilə Xalidşah qızı -2 saylı tam orta məktəb, 694 bal; Məmmədova Sevinc İsmayıl qızı - 1 saylı tam orta məktəb, 680,2 bal; Hüseynova Aygün Elyar qızı -1 saylı tam orta məktəb, 677,1 bal; Qasımov Əhmədxan Elman oğlu -6 saylı məktəb-lisey, 655 bal; Hacıyeva Meyvəgül Şahin qızı -2 saylı tam orta məktəb, 647 bal; Babayeva Nuray Elşən qızı-Yenikənd tam orta məktəbi, 645 bal; Salahova Şəhanə -Məşrif kənd tam orta məktəbi, 628 bal; Əliyeva Nərgiz Həsənağa qızı -1 saylı tam orta məktəb, 626 bal; Əhmədova Ziba Faiq qızı -1 saylı tam orta məktəb, 625 bal; Abbasov Abbas Füzuli oğlu -6 saylı məktəb-lisey, 623 bal; Salihov Murad Dilavər oğlu -2 saylı tam orta məktəb, 612 bal; Rüstəmov Təyyar Rauf oğlu -1 saylı tam orta məktəb, 603 bal; Əhmədova Nərmin Elşən qızı -1 saylı tam orta məktəb, 603 bal; Qədimova Aydan Araz qızı -Zarat kənd tam orta məktəbi, 603 bal.

**Vahid Məmmədov,**
**Təhsil şöbəsinin böyük məsləhətçisi.**

# Bir sinifdən 27 tələbə

2017-2018-ci tədris ilində məktəb rəhbərliyi tərəfindən $X^b$ sinfi mənə həvalə olundu. Sinif rəhbərliyi üçün. Düzü, bu məsuliyyətli yükün altına girməyə tərəddüd edirdim. Kurikulum siniflərinin ilk buraxılışı idi bu sinif. Sinifdə 30 şagird təhsil alırdı. Kurikulumun ilk buraxılışı təmayül sinif olduğu üçün ilk zamanlar bir qədər tərəddüdlərim vardı.

Sinfin orta səviyyəsi yaxşı idi. Fizika, riyaziyyat və təbiət təmayüllü olduğu üçün şagirdlər I və IV ixtisas qruplarına hazırlaşırdı. X sinifdən başlayaraq mütəmadi olaraq onların bilik səviyyəsini, fənlərin tədris vəziyyətini öyrənmək üçün qapalı və açıq tipli suallarla yoxlamalar təşkil edilirdi. Əldə olunan nəticələr qənaətbəxş olurdu.

Qəbul imtahanlarında 4 şagird 600-dən yüksək nəticə topladı: Məmmədova Sevinc 680 bal, Hüseynova Aygün 677 bal, Əliyeva Nərgiz 626 bal, Əhmədova Ziba 625 bal. Sinifdə təhsil alan 30 şagirddən 27 nəfəri ali məktəblərə qəbul olub, tələbə adını qazandı. Onların arasında gələcəyin həkimləri, fizika, riyaziyyat müəllimləri, pilotları, hərbçiləri, psixoloqları, mühəndisləri və digər sahələri təmsil edəcək məzunlarımız var. Onlar Azərbaycan Tibb Universiteti, Bakı Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Dəniz Akademiyası, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti, FHN Akademiyası, Azərbaycan Ali Hərbi məktəbi kimi nüfuzlu ali məktəblərin tələbəsi adını qazanmışlar.

Bu nəticənin qazanılmasında onlara 11 il dərs demiş müəllimlərinin əziyyəti danılmazdır: Niftəliyeva Ruhiyyə, Məmmədov Vahid, Əhmədova Fidan, Yaqubova Xoşbəxt, Yaqubova Xavər, İbrahimova Məruzə, Nəcəfi Aida, Rəcəboliyeva Aytən, Yaqubova Rəhimə, Əliyeva Gülnarə və s.

Ümumiyyətlə, məktəbimizdə təlim və tərbiyə prosesi düzgün qoyulmuşdur. Bunun nəticəsidir ki, hər il məzunlarımız yüksək nəticə toplayaraq ali məktəblərə qəbul olurlar. Məktəbimizin durmadan artan şöhrətinin nəticəsidir ki, bu il son zəng tədbirimizdə Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov, Təhsil Nazirinin müavini İdris İsayev iştirak etmişlər. Onlara öz minnətdarlığımızı bildiririk.

**Aida NƏCƏFİ,**
**1 saylı tam orta məktəbin müəllimi.**

*Xatırlananlar*

# QƏNDALI ATAÇAYLI

"Səkkizinci sinifdə oxuyurdum. Xəbər çıxdı ki, qonşu Altıağac kənd məktəbinə böyük şair Səməd Vurğun görüşə gələcək. Ətraf kəndlərdən də dəvətlilər var idi. Müəllimlər, söz, sənət, ədəbiyyat həvəskarları yığışacaqdı həmin tədbirə. Qanad taxıb uçurdum. Axı illərlə üzünü görmək istədiyim şairlə görüşə mən də gedəcəkdim. Az-para yazılarıma görə məni məktəbimizin şairi adlandırırdılar axı.

Çox maraqlı keçdi bu tədbir. Mən də öz şeirlərimi oxudum. Sinəsinə sıxdı böyük şair, nəfəsini duydum onun. Dünyanın ən xoşbəxti idim onda. Başımı sığallayıb: «Bu oğlandan muğayat olun. O, elə indidən şairdir» -dedi.

Elə bil ikinci nəfəs verilmişdi mənə, yazırdım, yaradırdım. İllər ötdü. Tanınırdım. İndi bir az yazılarımla, kiçik dairədə olsa da. Ətrafımdakı bütün şeir sevənlər məni ölkə miqyasına çıxmağa, tanınmış yazıçı, şairlərlə görüşməyə həvəsləndirirdi: «Get, nədən utanırsan axı? Sən ki gözəl yazırsan.»

Çox düşündüm, qərar verdim, nəhayət, gedəcəkdim. Özümə ruhən daha yaxın, doğma hesab etdiyim birinin yanına. Yazılarımı götürüb getdim.. Radioda eşitmişdim səsini, televizorda görmüşdüm üzünü. Şeirlərinin çoxunu əzbər bilirdim. Bəlkə də qohumluğumuz da çatırdı, bir az.

Qarşıladı, tamam fərqli səs, fərqli sifət. Gəlişimin məqsədini bilcək «hər yerindən duran şeir yazır» dedi. Dinləmədi bircə şeirimi də. Qulaq asmaq istəmədiyini duydum. Sağollaşdım. Bu söhbətdən sonra uzun illər heç nə yaza bilmədim."

Bunlar onun-gözəl şair, mərhum Qəndalı Ataçaylının dilindən eşitdiyim xatirələridir. ...İllər ötmüşdü. İndi mən də nəsə yazırdım. Hətta kitablarım da nəşr olunmuşdu. Nə, kim olsam da, onu özümdən qat-qat üstün sayırdım. Yanıma gəlmişdi. Öz ilk kitabını nəşr etdirmək istəyirdi. «Məsləhətə ehtiyacım var»-dedi. Allahım, kimin mənə ehtiyacı var idi?

Razılaşdıq, onunla birgə getdik nəşriyyata. Redaktorla söhbətdə həmin kitaba ön sözü də yazmasını xahiş etdim. Bəhanəylə boyun qaçırmaq istədi. «Özün yazarsan» dedi. Məsuliyyətin altına girmək istəmirdi. «Şeirləri oxuyacaqsanmı?» soruşdum. Təəccüblə üzümə baxıb: «Bəs redaktorun işi nədir?» sualından sonra- «Onda şübhəsiz ki, ön söz yazacaqsan» -dedim.

Təxminən on beş gündən sonra yenə nəşriyyatda idik. Müəllifin redaktora utana-utanə «Müəllim, o yazılar şeirə oxşayır?» sualına redaktorun geniş bir şərhindən sonra «Sənin təkilər dünyaya az-az gəlir, şair» deməsi çox kövrəltdi məni.

Bu fikir artıq yaşı yetmişi ötmüş Ataçaylı barəsində deyilmişdi. Bizim dağların, taleyinə tanınmaq qismət yazılmamış şair oğlu Qəndalı Ataçaylı. Bir neçə gündən sonra yenə nəşriyyatda idik. Kitabları gətirməyə gəlmişdik. Uşaq kimi sevinirdi. Kitabın ilk səhifələrini açdı. Əlləri ilə sığallaya-sığallaya necə böyük sevinc yaşadığını görürdüm. Yaşarmışdı gözləri. Uşaq məsumluğu vardı üzündə. Mən də baxdım kitaba. Ön söz də yazılmışdı, redaktorun ön sözü.

**Nəcməddin MÜRVƏTOV,**
**AYB-nin üzvü.**

# İDMAN XƏBƏRLƏRİ

Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə «Sağlam həyat tərzini seç» devizi altında gənclər arasında mini-futbol üzrə rayon çempionatına yekun vurulub. Şəhər stadionunda keçirilən çempionatda 21 komanda 4 qrupda mübarizə aparıb.

Final görüşündə «Cavanlar» üzərində 1:0 hesabı ilə qələbə çalan «Şollar» komandası rayon çempionatının qalibi olub. «Spartak» komandası yarışı III yerdə başa vurub. Yer tutan komandalar kubok, fəxri fərman və pul mükafatları ilə təltif ediliblər.

************************

Gənclər Mərkəzində 12 Avqust «Beynəlxalq Gənclər günü» münasibətilə yeniyetmələr arasında dama oyunu üzrə rayon birinciliyi keçirilib. 2 yaş qrupu üzrə təşkil edilən yarış stolüstü oyunların rayonda inkişaf etdirilməsi və yeniyetmələr arasında təbliği, yeniyetmələrin stolüstü oyunlara marağının artırılması, həmçinin onların asudə vaxtlarının səmərəli təşkili məqsədilə keçirilmişdir. Yarış iştirakçıları olimpiya sistemi üzrə qüvvələrini sınayıblar.

2007-2009-cu il təvəllüdlü yeniyetmələr arasındakı oyunların nəticəsinə əsasən Ağayev Teymur I, Qurbanlı Əli II, Bağırov Kamil III olublar. 2010-2012-ci il təvəllüdlü yeniyetmələr arasında isə Xalıqov Vahid I, Əmirov Sübhan II, Bağırov Amil III yeri tutubdur. Hər iki yaş qrupu üzrə yer tutan yeniyetmələr idarə tərəfindən fəxri fərmanlarla təltif ediliblər.

***************************

Gənclər Mərkəzində «Nə? Harada? Nə zaman?» intellektual oyunu üzrə gənclər arasında rayon çempionatı keçirilmişdir. Çempionatda 11 komanda mübarizə aparıbdır.

Gərgin rəqabət şəraitində keçən 2 turun ümumi nəticəsinə görə «Anonyumous» komandası I, «Nivana» komandası II, «Uran» komandası isə III olub. Yer tutan komandalar fəxri fərmanlarla təltif ediliblər.

**Nadir Məmmədov,**
**Gənclər və İdman idarəsinin rəisi.**

# Yaşayış massivlərində yanğınların baş vermə səbəbləri: potensial təhlükələr və onların aradan qaldırma yolları

Bu gün müstəqil Azərbaycanımızı böyük inşaat meydanına bənzətmək olar. Ölkə iqtisadiyyatının sürətli inkişafı şəhər və rayonlarımızın, qəsəbə və kəndlərimizin mənzərəsini gündən-günə dəyişir, yeni tikililər, xüsusən də təzə salınan yaşayış massivləri əhaliyə daha firavan həyat bəxş edir.

Təbii ki, istər müasir dövrdə tikilən və istərsə də köhnə evlərdə sakinlər qazdan və elektrik enerjisindən istifadə etməklə öz məişət problemlərini həll edirlər. Demək olar ki, hər bir ailədə cürbəcür məqsədlər üçün müxtəlif kimyəvi maddələrdən, tezalışan mayelərdən istifadə olunur. Bütün bunlar isə mənzillərdə yanğın təhlükəsizliyinə ciddi əməl olunmasını tələb edir. Hər bir vətəndaş bilməlidir ki, evlərdə yanğın təhlükəsizliyi qaydalarının pozulması, qaz və elektrik cihazlarından düzgün istifadə olunmaması, uşaqların odla dəcəlliyinə etinasız münasibət insan itkisi, külli miqdarda maddi ziyanlarla nəticələnən böyük yanğınlara səbəb olur.

Aparılan araşdırmalar göstərir ki, yaşayış yerlərində baş verən yanğınların əsas səbəbi od ilə ehtiyatsız davranmaqdır. Bəzən ilk baxışdan narahatçılıq doğurmayan, tez-tez müşahidə etdiyimiz və ciddi diqqət yetirmədiyimiz adi hallar belə iri yanğınlar törədir. Xüsusilə çardaqlarda, ot və s. yem bitkilərinin saxlandığı anbarlarda, yaşayış yerlərindəki yardımçı təsərrüfat binalarında siqaret çəkmək, işıqlandırma məqsədilə oddan açıq halda ehtiyatsız istifadə etmək böyük yanğınların baş verməsinə şərait yaradır.

Siqaret çəkilərkən etinasız davranışlar xüsusilə təhlükəlidir. Unutmamalyıq ki, siqaret alışdırarkən kibrit və ya siqaretin qalığını yana-yana hara gəldi atmaq, yaxud taxta üstünə, hətta od ilə azacıq təmasda alışa bilən şeylərin yaxınlığına qoymaq böyük yanğınlar törədir.

**Rövşən Bəkirov,**
**DYNX-nin Yanğına qarşı təbliğat şöbəsinin böyük təlimatçısı.**

## İtmişdir

54 saylı Şabran-Siyəzən seçki dairəsinin 48 saylı məntəqəsinin komissiya üzvü Məmmədov Rüfət İlqar oğlunun adına verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

****************************

Daxili İşlər Nazirliyi tərəfindən Hüseynov İlham Höcət oğluna verilmiş «Qarabağ Müharibəsi iştirakçısı» veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov və aparatın kollektivi Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini Zəfər Əliyevə bacısı

**Zümrüd Nüsrət qızı Əliyevanın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə baş sağlığı verirlər.

************************

Aydın Tağıyev və İlyas İlyasov Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini Zəfər Əliyevə bacısı

**Zümrüd Əliyevanın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

***********************

Aydın Tağıyev və İlyas İlyasov Yusif Dadaşova həyat yoldaşı

**Zümrüd Əliyevanın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Redaktor
İlyas İLYASOV

Təsisçilər:
Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
Qeydiyyat № 314
Redaksiyanın ünvanı: Siyəzən şəhəri, Şəhriyar küçəsi, 1[a]

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 2494
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83